UOT 94(479.24)

İSMAYIL HACIYEV
AMEA Naxçıvan Bölməsinin sədri, akademik
hacıyev.i1951@gmail.com

NAXÇIVAN ƏYALƏTİ VƏ ORDUBAD DAİRƏSİNİN İQTİSADİ HƏYATI

DOI: https://doi.org/10.36719/2708-065X/106/131-137

Məqalədə Naxçıvan əyalətinin və Ordubad dairəsinin kameral təsvirləri əsasında XIX əsrin 30-cu illərindəki iqtisadi vəziyyəti tədqiq edilmişdir. Torpaq üzərində mülkiyyət və təsərrüfat formaları, kənd təsərrüfatı və heyvandarlığın mövcud vəziyyəti və inkişafı, vergi sistemi, onun qruplara ayrılması və toplanması, iltizama verilən sahələr və mükəlləfiyyətlər, Naxçıvan əyalətinə idarəçinin təyin edilməsi kimi məsələlər araşdırılmış, əyalət və dairənin iqtisadi xüsusiyyətləri haqqında yekun nəticələr çıxarılmışdır.

Açar sözlər: əyalət, dairə, vergilər, mükəlləfiyyətlər, iqtisadiyyat, kənd təsərrüfatı, iltizam, tiyul.

Giriş. Naxçıvan xanlığı 1828-ci ildə Rusiya imperiyası tərəfindən Türkmənçay sülh müqaviləsi ilə ilhaq edildikdən sonra həmin ərazilərdə vergi tətbiq etmək məqsədi ilə siyahıyaalma aparılmış və Kameral təsvirlər tərtib edilmişdir. Naxçıvan əyaləti üzrə və Ordubad dairəsinə aid Kameral təsvirlər 1831-ci ilə, Ordubad şəhəri üzrə Kameral təsvir isə 1832-ci ilə aiddir. Naxçıvan əyalətinin Kameral təsvirlərinə Naxçıvan şəhərinin, Əlincəçay mahalının, Məvazixatun mahalının, Xok mahalının, Dərələyəz mahalının, Ordubad dairəsinin kameral təsvirinə Ordubad şəhəri, Ordubad mahalı, Əylis mahalı, Dəstə mahalı, Biləv mahalı, Çinannab (Çənnəb – İ.H.) mahalının kameral təsvirləri daxildir. Kameral təsvirlərdən aydın olur ki, bu dövrdə əyalət və dairədə təsərrüfat çoxcəhətli və rəngarəng olmuşdur. Naxçıvan əyaləti və Ordubad dairəsinin torpaqları həm yararlı, həm də bərəkətli idi. Ona görə də kameral təsvirlərdə bu ərazilərin iqtisadi inkişafı və təsərrüfat həyatı inkişaf göstəriciləri ilə diqqəti cəlb etmişdir. Naxçıvan əyaləti və Ordubad dairəsində taxıl, pambıq, çəltik, üzüm, bostan bitkiləri, ipəkçilik, heyvandarlıq, arıçılıq, duz istehsalı iqtisadi inkişafda mühüm yer tuturdu.

Torpaqlardan istifadə. Kameral təsvirlərdə torpaq mülkiyyəti formaları barədə müxtəlif fikirlər söylənilir. Əyalət və dairədəki feodal münasibətlərinin başqa ərazilərdəki feodal münasibətlərdən fərqləndiyi qeyd edilir. Burada feodal münasibətləri xanların və iri mülkədarların yerli tayfalar üzərində böyük nüfuza malik olduğunu göstərir. Xanlar və iri mülkədarlar tayfalara təsir göstərmək səlahiyyətinə malik idilər [16, s.50].

Naxçıvan əyalətində kənd əhalisi torpaqlarından icma şəklində istifadə edirdi, həyətyanı sahələr və bağlar isə hər ailənin irsi mülkiyyətində idi və yenidən bölgüyə məruz qalmırdı. Əkin və biçənək yerləri isə yenidən bölünürdü Bölgünü ya ailədəki kişilərin sayına, yaxud da ailə üzvülərinin ümumi sayına görə aparırdılar.

Belə bölgünün aparılması üçün kəndlilərdən bir neçə hörmətli və inanılmış adamlar seçilirdi. Onlar əkin yerlərini və biçənklərin ümumi sahəsini müəyyənləşdirir və qeyd olunan prinsipə əsasən bölgü aparırdılar. Sonra bölgü ilə həyata keçirilən və torpaq alan kəndliyə kəndxudanın möhürü ilə təsdiq edilmiş sənəd verilirdi [10, s.104].

Tədqiqatçı Y.Rəhimova görə XIX əsrdə bölgədə torpaq mülkiyyətinin iki əsas forması geniş yayılmışdı: mülk və tiyul torpaq sahələri [12, s.90]. Hər hansı bir adama, yaxud yerli feodallara məxsus olan irsi torpaq sahəsi mülk adlanırdı. Bəzi şəxslərə dövlət qarşısındakı xüsusi xidmətlərinə görə verilən torpaq sahəsi tiyul adlanırdı. Tiyul adətən həmin şəxsə ömürlük verilir və irsən keçmirdi, yəni öldükdən sonra yenidən xəzinəyə qaytarılırdı. Mülkədara çatan pay isə alqı-satqı obyekti olmaqla, varislərə keçirdi. Bəzən kənddə mülk bir şəxsə, tiyul isə başqa şəxsə, bəzən isə həm tiyul, həm də mülk eyni şəxsə məxsus ola bilirdi.

Naxçıvan əyalətində xana məxsus olan "xalisə", dini müəssisələrə aid olan "vəqf" və kənd icmasının ixtiyarında olan "camaat torpaqları" adlı torpaq mülkiyyəti formaları olmuşdur. 1831-ci il

kameral təsvirinin materiallarına görə Xanağa kəndində mülk torpaqlarının dörddən üç hissəsi xəzinənin, dörddən bir hissəsi isə Əhməd Sultanın idi [5, v.36]. K.M.Smirnovun fikrincə, Naxçıvan ərazisində vəqf torpaq sahələri o qədər də çox olmamışdır. Tədqiqatdan məlum olur ki, Qarabağlar kəndi Kalbalıxanovun, Kırna kəndi Mahmud ağa Kəngərlinin, Xok kəndi isə Xok xanı Naxçıvanskinin tiyulu idi. İ.Şopen isə Naxçıvan bölgəsinin 17 kəndində tiyul torpaq sahibliyinin mövcud olduğunu və bu kəndlərdəki tiyul sahiblərinin əksəriyyətinin bəylər və xanlar olduğunu göstərir.

K.Smirnov Naxçıvan diyarına həsr olunan əsərində Mərənd mahalının bir neçə kəndinin tiyul olaraq Zaman xan və Məhəmməd xan Kəngərlilərə verməsi haqqında Abbas Mirzənin xüsusi fərmanı olduğunu yazır [16, s.32]. Başqa bir rus müəllifi V.Qriqoryev də "Naxçıvan əyalətinin statistik təsviri" əsərində Camaldın kəndinin Ehsan xanın, Bənəniyar kəndinin Hüseyn xanın, Xanağa kəndinin isə Nəzərəli xanın tiyulları olduğunu göstərir. Gal kəndinin torpaqları 5 mülkədara məxsus olmuşdur [5, s.76].

Kəlbəli xanın böyük oğlu, 1820-ci ildə Naxçıvan hakimi təyin edilən Nəzərəli xana məxsus olan Xanağa kəndində 1831-ci ildə 33 ailə, 76 kişi, 70 qadın, cəmi 146 nəfər yaşayırdı. Kənd sakinlərinə məxsus 1 işlək və 4 yararsız dəyirman, 15 arı ailəsi, 23 camış, 76 öküz, 68 inək, 30 buzov, 23 at, 233 qoyun, 207 keçi, 13 ulaq var idi. Mülkədar Nəzərəli xan vergi kimi 22 xalvar 4,75 batman taxıl, sakinlər isə 40 tümən, 5 pənahabad, 9,5 şahı pul ödəyirdilər [2, v.175].

K.Smirnov Kəngərli bəylərinin 50 min desyatin torpaq sahəsinə malik olduğunu yazır. Onun fikrincə, bölgədəki torpaq sahələrinin 46,5 faizi və ya 460 min desyatini mülkədarlara məxsus olmuşdur [16, s.51].

Tədqiqatlardan aydın olur ki, bir sıra hallarda Naxçıvan şəhərindəki və şəhər ətrafındakı torpaqlar da tiyul formasında kimlərəsə verilmişdi.

Vergilər və mükəlləfiyyətlər. İqtisadi məsələlər içərisində vergi və mükəlləfiyyətlərin də özünəməxsus yeri vardır. Vergilər bir çox hallarda sinifli cəmiyyətlərin mühüm əlaməti kimi özünü göstərirdi. 1727-ci ildə tərtib edilmiş "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə vergilərin bəziləri haqqında məlumat verilmişdir. 1590-cı ildə tətbiq edilən vergilərlə müqayisə üçün Əlincə nahiyyəsinin Xanəgah kəndində vergilərin tətbiqi bəzi məsələləri aydınlaşdırır. Kənddə hərəsi yarım il işləyən 3 dəyirman, 5 cift (bir cüt öküzün işləyəcəyi əkin sahəsi "cift adlanırdı"), 4 yarımcift, 11 bennak və 4 subay qeydə alınmışdır. 5 ciftliyə görə 250 ağça, 4 yarımçiftliyə görə 100 ağça 11 bennaka görə 198 ağça, 4 subaya görə 24 ağça vergi alınmışdır. Bu rəqəmlər göstərir ki, 1590-cı ildən keçən 137 il ərzində bu vergilər 1 ağça da artırılmamışdır. Halbuki, vergi kimi alınan məhsulların pulla ifadəsi 1727-ci ildə ağçanın kursunun xeyli dərəcədə inflyasiyaya uğradığını göstərir. Belə ki, 1727-ci ildə buğdanın 1 kilesi (kilosu) 30, arpanınkı 20, darınınkı 15 ağça idi. Xanəgah sakinlərinin bal öşrü (örüşü – İ.H.) kimi 120 ağça ödəməsi kənddə 60 arı ailəsinin, 40 ağça qoyun vergisi ödədikləri isə sakinlərə məxsus 80 qoyunun olduğunu göstərir. 600 ağça dönüm vergisi kənddəki 5 çiftlik və yarımçiftlikdən əlavə 1200 dönüm və ya 120 ha əkin yerinin olduğunu göstərir. Əgər hər çiftliyin 100 dönüm və ya 10 ha hesab etsək, 1727-ci ildə Xanəgah kəndində 20 ha-ya yaxın əkin sahəsinin olduğunu düşünə bilərik [11, s.84-85].

Əlincəçay mahalının 1831-ci ilə aid Kameral təsvirində Xanağa kəndinin 100 xalvar suvarılan və daha az miqdarda əkinəyararlı dəmyə torpaqlarının olduğu qeyd edilmişdir. 1 xalvar ərazi 2 ha-ya yaxın idi.

Xanəgah kəndinin sakinləri 1727-ci ildə cəmi 9.751 ağça vergi ödəmişdilər. Müqayisə üçün deyək ki, 43 bennakın və 11 subayın yaşadığı Bənəniyar kəndi 14.567 ağça, 59 bennak və 3 subayın yaşadığı Kırna kəndi 10.960 ağça, 44 bennakın və 5 subayın yaşadığı Saltaq kəndi 12.709 ağça, 27 bennak və 9 subayın yaşadığı Ərəzin kəndi 9.721 ağça vergi ödəmişdi [13,s.101-102].

V.Qriqoryev Naxçıvan əyalətində yaşayan əhalinin vergi verənlər və vergidən azad olanlar olmaqla iki əsas sinfə bölündüyünü yazır. Xanlar, bəylər, seyidlər və yüksək rütbəli ruhanilər vergi vermirdilər. Vergi verənlər isə sənayeçilər, tacirlər, sənətkarlar, kəndlilər və torpaq sahibləri idi.

İran Qacarlar dövlətinin vaxtında Naxçıvan xanlığı iltizama verilmişdi. Azərbaycan valisi Abbas Mirzə hər 5-6 ildən bir iqtisadi məsələlər üzrə məmurunu Naxçıvana göndərir, vergiyə cəlb olunan əkinləri, insanları, mal-qaranı, xəzinə əmlakını, ümumiyyətlə hər şeyi siyahıya aldırır, bütün Naxçıvan xanlığının ərazisindən yığılmalı olan verginin miqdarı müəyyənləşdirilir və həmin sənədin bir surəti

Naxçıvanın yerli hakiminə verilirdi. Yığılan vergi isə bir qayda olaraq bu siyahıdakı məbləğdən yüksək olurdu. Çünki yerli idarəçilər öz xeyri üçün əlavə miqdarda da vəsait toplayırdılar [13, s.101-102].

1828-ci ildən əvvəl Naxçıvan əyaləti və Ordubad dairəsindən aşağıdakı miqdara vergi yığılmışdı: Naxçıvan əyaləti üzrə 90.083 rubl 50 qəpik; Dərələyəz mahalı üzrə 2 min rubl və 1.932 xalvar, 90 batman taxıl; Ordubad dairəsi üzrə 40 min rubl və 452 xalvar taxıl. Gümüş pulla cəmi 134.083 rubl 50 qəpik və 2.424 xalvar 90 batman taxıl [17, s.1138].

1828-ci ilin əvvəllərində vergilərin toplanması polkovnik Voljinskiyə tapşırılmışdı. Onun verdiyi məlumata görə Naxçıvan əyaləti üçün gümüş pulla 56.085 rubl 26 qəpik və 1.1718 xalvar 57 batman taxıl; Ordubad dairəsi üzrə 40.226 rubl pul və 962 xalvar taxıl; Cəmi gümüş pulla 96.311 rubl 76 qəpik və 2.210 xalvar 57 qəpik vergi alınmışdı [17, s.1138].

General Merlini Naxçıvan əyalətinə idarəçi təyin edildikdən sonra vergi və rüsumlar dəqiqləşdirilməyə başlandı. Naxçıvanı iltizama verəcəyini düşünən yerli xanlar və bəylər rəqəmləri bilərəkdən azaltdılar. Onlar bəzi kəndləri siyahıya almır, bəzi vergi növlərini siyahıya daxil etmir və torpağa olan sahibkarlıq hüququnu saxtalaşdırırdılar.

Merlinin tərtib etdiyi Kameral təsvirə görə Naxçıvan əyalətindən 55.503 rubl 9,5 qəpik; Dərələyəzdən 8 min rubl və 1.878 xalvar 17,5 batman taxıl; Ordubad dairəsindən 40.281 rubl 70 qəpik və 440 xalvar taxıl; Cəmi 103.704 rubl 79,5 qəpik pul və 2.318 xalvar 29 batman taxıl alınmışdı [17, s. 1139].

General Merlinin toplatdırdığı vergi və rüsumlar Paskeviçi qane etmədi və bu işi Erməni vilayəti üzrə inzibati idarənin müşaviri Petrikova həvalə etdi. Onun dövründə isə rəqəmlər daha aşağı olmuşdu. Cəmi gümüş pulla 99.940 rubl 40 qəpik və 2.187 xalvar 59 batman taxıl toplanılmışdı [17, s.1139-1140].

Paskeviç bununla razılaşmadığından İ.Şopeni Erməni vilayətinə dəvət edib bu işi ona tapşırdı. Mənbələrdən aydın olur ki, XIX əsrdə Naxçıvan əyalətində, Ordubad dairəsində və Rusiya işğalına məruz qalan digər yerlərdə vergi sistemi çox mürəkkəb olmuşdur. Vergilər pulla və natura ilə yığılırdı. Naxçıvan əyalətində, eləcə də Ordubad dairəsində pul ilə ödənilən vergilər bilavasitə və bilvasitə vergilər olmaqla 2 qrupa ayrılırdı. Adambaşına, evbaşına, icma şəklində ödənilən, heyvandarlıq, arıçılıq, dəyirman, bez toxuyanlardan, erməni kilsəsindən, daşınmaz əmlakın kirayəsindən və ticarətçilərin dövriyyə kapitalından bilavasitə vergi alınırdı [17, s.1142]. İltizama verilən sahələr bilvasitə vergilər idi.

Naxçıvan əyalətində evlərdən, adamlardan, mal qaradan, əkinlərdən vergi alınırdı. Pulla alınan vergilər ildə 3 dəfəyə, əkinlərə görə yığılan natural vergilər isə biçindən sonra bir dəfəyə alınırdı.

Adamlardan nəğd pulla alınan vergilərdən biri başpulu idi 15 yaşına çatmış hər bir müsəlmandan gümüş pulla 1,2 rubl vergi alınırdı. Ermənilərdən alınan vergi isə 2 gümüş rubl idi. Müsəlman və ya erməni olmasından asılı olmayaraq hər ailədən 2 rubl evpulu alınırdı [13, s.103].

Heyvandarlıqla məşğul olan adamlardan mal-qara üçün malpulu və qoyunpulu alınırdı. Camış və ata görə ildə 1 rubl, inəyə və ulağa görə 50 qəpik, yük ulağına görə 1 rubl 20 qəpik, yük atına görə 2 rubl, qoyuna görə 20 qəpik vergi alınırdı [13, s.104-105].

Bəhrəkarlıq təsərrüfat üsulu ilə məşğul olan hər bir sakin əldə edilən taxılın 30 hissəsindən 7 hissəsini vergi kimi ödəyirdi. Bunun 4 hissəsi xəzinəyə, 3 hissəsi isə mülkədara çatırdı [17, s.988].

Naxçıvan əyalətində pul ilə vergilər aşağıdakı sahələrlə məşğul olanlardan alınırdı: toxucu pulu, mancanaq vergisi, bağpulu, toyxərci, bayramlıq, dəyirmanpulu, hamamlardan, karvansaralardan və dükanlardan vergi alınırdı. Tacir və sənətkarlar xəzinəyə ildə 400 tümən vergi verirdilər. Pambıq, çəltik, darı və digər kənd təsərrüfatı məhsulu satan şəxs xəzinəyə nəğd pul verirdi [13, s.107-110].

Natural şəkildə vergi kimi alınan taxılın üçdə iki hissəsi buğda, üçdə bir hissəsi isə arpa ilə ödənilirdi. Meyvə və üzümün bir xalvarı üçün 6 rubl vergi alınırdı. Xəzinə torpaqlarında əkilən yoncadan da taxılda olduğu kimi vergi alınırdı. Mülkədar torpaqlarında əkilmiş yoncanın hər xalvarına görə 6 rubl vergi alınırdı.

Naxçıvan əyalətində və şəhərində kəngərlilərdən başqa bütün şəhər və kənd əhalisi vergi ödəyirdi. Sülh vaxtı bütün kəngərlilər evpulu, başpulu və malpulu yerinə gümüş pulla 1.260 tümən, 3 rubl 60 qəpik vergi ödəyirdilər [13, s. 108].

İllik vergilərin strukturunda iltizama verilən sahələr xüsusi yer tuturdu. Xəzinəyə gəlir verən müəyyən sahələr müəyyən miqdarda pulun müqabilində ayrı-ayrı adamlara satılırdı.

İltizama verilən sahələr aşağıdakılar idi: 1.Rahdarlıq və ya gömrük. 2.Boyaqxana. 3.Qəssablıq. 4.Dabbaqxana. 5. Mizan. 6.Meyvə satanlar. 7. Əllaf. 8.Sabun iltizamı. 9.Tütün iltizamı. 10.Duz iltizamı.

Bu sahələrin hər biri iltizama verilir, iltizamçı isə bundan qazanmağa çalışırdı. Rahdarlıq 1.300 tümənə, boyaqçılıq 370 tümənə, qəssablıq 250 tümənə, dabbaqlıq 65 tümənə, mizançılıq 100 tümənə, meyvə satmaq 80 tümənə, əllaflıq 50 tümənə, sabun iltizamı 60 tümənə, tütün iltizamı 15 tümənə, duz iltizamı 1.000 tümənə verilmişdi. Ümumiyyətlə iltizama verilən 10 sahədən 2.990 rubl əldə edilirdi. İltizamçılar isə daha böyük gəlir əldə edirdilər.

Naçıvan əyalətinin və Ordubad dairəsinin mükəlləfiyyətləri vergi kimi verilən taxılın Naxçıvan şəhərinə və ya Abbasabad qalasına daşınması, xəzinəyə məxsus olan binaları təmir etmək üçün fəhlə vermək, vergi taplamağa gələn xan nökərləri və onları müşaiyət edən şəxslərin yeməyini vermək, yığılan vergilərin onda biri miqdarında onlara qulluqpulu vermək və Ordubad sakinləri ilə birlikdə 800 sərbəz verməkdən ibarət idi [10, s.102].

XIX əsr rus müəlliflərinin Naxçıvanla bağlı əsərlərində və 1831-ci il Kameral təsvirlərdə Naxçıvandakı duz yataqları, onun çıxarılması üsulları, miqdarı, qiyməti və satışı haqqında da məlumatlar verilmişdir. Aydın olur ki, duz mədənində çalışan hər bir işçi gün ərzində 40 pud duz çıxarır. Çıxarılmış daş duz hissələrinin hər pudu 1,5 qəpik, kiçik hissələri isə 0,5 qəpik qiymətində idi [15, s.138].

K.Nikitinin verdiyi məlumatdan aydın olur ki Naxçıvanda hər il 200 min pud duz çıxarılırmışdı. Çıxarılan duz başqa ərazilərə heyvanlar qoşulmuş qoşqu vasitəsi ilə daşınırdı. Naxçıvandan Cənubi Qafqazın şəhər və kəndlərinə duz qatırlarla daha çox daşınırdı. V.Qriqoryev Naxçıvan duzunun keyfiyyətindən bəhs edərək yazmışdı: "Bu duz keyfiyyətinə görə bütün Zaqafqaziyada məşhurdur. Qarabağdan, Yelizavetpol dairəsindən, Şərurdan və Naxçıvanın bütün kəndlərindən bura karvanlar gəlir. Aprel ayından oktyabr ayınadək duz istehsalının əhatə dairəsi daha da genişlənir" [13, s.17].

Duz mədəni xərcini ödəyəndən sonra ildə gümüş pulla 4 min manat gəlir gətirirdi. Yuxarıda qeyd olunan məlumatla yanaşı, bəzi məlumatlara görə Naxçıvan duz mədənlərindən 1860-cı ildə 203.800 pud duz çıxarılmışdı. Lakin sonrakı illərdə duz istehsalı azalmış, 1863-cü ildə 168.648 puda, 1866-cı ildə isə 161.465 puda enmişdi [12, s.81].

Naxçıvan duz mədənlərinin Azərbaycan sahibkarlarının əlindən alınaraq qeyri-azərbaycanlılara verilməsinin nəticəsi idi ki, müəyyən narazılıqlar və qarşıdurmalar yaranırdı. Duz istehsalı bu səbəbdən aşağı düşürdü.

Kənd təsərrüfatının inkişafı. Naxçıvan əyaləti və Ordubad dairəsi tarixən əkinçilik və heyvandarlığın inkişafı ilə diqqəti cəlb etmişdir. Əkinçilikdə taxıl, pambıq, üzüm, tütün və digər kənd təsərrüfatı məhsulları becərilirdi. Naxçıvan əyalətində buğda, arpa, çəltik və darı kimi taxıl bitkiləri əkildiyi kimi, pambıq, kətan, tütün və s. kimi texniki bitkilər də becərilirdi. Bir desyatin (1,09ha-ya bərabərdir – İ.H.) əraziyə torpağın vəziyyətindən asılı olaraq 10-15 pud buğda, 8-12 pud arpa, 2-3 pud kətan, 5-7,5 pud pambıq çiyidi əkilirdi. Buranın əkin torpaqları dağlıq və aşağı yerlərdən ibarət idi. Aşağı yerlərdə 1 desyatindən 70 pud buğda və 80 pud arpa, dağlıq ərazidə isə 70 pud buğda və 45 pud arpa biçilirdi [10, s.105].

Naxçıvan əyalətinin ərazisi ovalıq olduğuna görə daha çox taxıl, pambıq, çəltik, üzüm və bostan bitkiləri yetişdirilirdi. Naxçıvan şəhəri və ətrafı şumlanan torpaq sahəsinin 600 xalvar (onda birin yarısı – İ.H.) olduğu, onun yarısında isə pambıq, çəltik, bostan bitkiləri əkilirdi. Şəhərdə 21 meyvə və üzüm bağı yerləşir ki, onların 11-i daha böyük ərazini əhatə edir. Bağların ərazisi 30 xalvardır [13, s.70].

Əyalətin şəhər ətrafında və 13 kəndində çəltik əkilirdi. Çəltik Naxçıvan şəhərində, Şıxmahmudda, Uzunobada, Xəlillidə, Didivarda, Nəzərəbadda, Xalxalda, Qarababada, Şahbuzda, Cəhridə, Təzəkənddə, Nehrəmdə, Əlincə mahalının Əbrəqunus, Culfa, Camaldın, Saltax, Xanağa kəndlərində əkilirdi [13, s.88]. 1828-ci ildə Naxçıvan əyalətində 10 min pud çəltik yığılmışdı [13, s.191]. İşğal ərəfəsində burada 10 min xalvar (1 xalvar =20 pud=327,6 kq – İ.H.) buğda toplanmışdı.

Tekniki bitkilərdən pambıq və tütün də becərilirdi. 1828-ci ildə Naxçıvan əyalətində 6 min pud pambıq yığılmışdı [13, s.89]. Mənbələrdə burada tütünçülüyün istehsalının artmasından bəhs edilir. Tütünün hər pudu 10-30 manat arasındadır.

Əyalətdə 30 xalvar ərazidə üzüm bağları var idi. Bir xalvar üzüm sahəsindən 400 batmana yaxın üzüm yığılırdı. Burada özünün rənginə, böyüklüyünə, forma və keyfiyyətinə görə 60 növdə üzüm

vardır. Kişmişi üzüm daha məşhur idi. 1840-cı ildə Naxçıvan şəhərində 50 desyatin, 1850-ci ildə 84 desyatin, 1866-cı ildə isə artıq 400 desyatin ərazidə üzüm bağlarının salındığı məlum olur.

Bostançılıq da əkinçilikdə mühüm yerlərdən birini tuturdu. Naxçıvan əyalətinin 50 xalvarında bostan əkilmişdi. Əkilən bostan məhsullarından qarpız, yemiş, qovun və b. üstün yer tuturdu.

Naxçıvan əyalətində maldarlıq da mühüm yer tuturdu. Buynuzlu heyvanların sayı nəqliyyat heyvanlarından təxminən 10 dəfə artıq idi. Naxçıvanda 87 qatır var idi ki, bunlardan daha çox duz daşınmasında istifadə olunurdu. Qoyunçuluq da əlverişli və xeyirli təsərrüfat sahəsi idi. XIX əsrin 60-cı illərində burada 400 min heyvanın olduğu haqqında məlumatlar var. Əlincə mahalında 8.902 baş mal-qara olmuşdu [2, v.214].

Ordubad dairəsinin əhalisi də əkinçilik və heyvandarlıqla məşğul olurdular. Ordubad dairəsində əkilən torpaqların böyük əksəriyyəti Biləv və Dəstə mahallarında yerləşirdi. Bu mahallarda əkilən torpaqların ümumi sahəsi 966 xalvar idi. Yuxarı Əylis kəndində əkinçilik üçün əlverişli şərait var idi. Kənddə 32 meyvə bağı becərilirdi. Ordubad dairəsində taxıl, arpa, pambıq, çəltiklı yanaşı, meyvə və üzüm bağları, tərəvəz və bostan məhsulları əldə edilirdi. 250 xalvar ərazidə pambıq əkilirdi. Təkcə Yuxarı Əylis kəndində 90 üzüm bağı vardı [4, v.2-3].

Dairənin Xanağa kəndində 5 bağ var idi [5, v.35]. Dəstə mahalının Dırnıs kəndində 17 meyvə bağı var idi [5, v.81]. Bütövlükdə Dəstə mahalında 195 meyvə bağı becərilirdi

İpəkçilik kənd təsərrüfatının çox gəlirli sahələrindən biri idi. Ordubad dairəsində 100 min tut ağacı var idi. XIX əsrin 20-ci illərində Ordubad şəhərində 200 pud ipək istehsal edilmişdi [13, s.195]. Bu dövrdə Dəstə mahalında 21 batmanadək xam ipək hazırlanmışdı [5, s.118].

Heyvandarlıq da Ordubadın kənd əhalisinin əsas məşğuliyyətinə çevrilmişdi. 1828-ci ildə Ordubad şəhərində azərbaycanlıların 58 camışı, 82 öküzü, 144 inəyi, 115 danası, 182 qoyunu, 38 keçisi, 102 atı, 123 ulağı, 41 qatırı olmuşdur. Bütün Naxçıvan əyalətində isə 100 min kəl və camış, 1,5 min at, 200 qatır, 800 ulaq, 15 min qoyun, keçi olduğu göstərilir [13, s.93].

Arıçılıq da mühüm təsərrüfat sahəsi idi. Yuxarı Əylis kəndində 23 arı pətəyi var idi. Ordubad dairəsində ümumən 2500 arı pətəyi var idi. Şopen yazır ki, Ordubadda cəmi 470 arı pətəyinə rast gəlirik, bal çox keyfiyyətlidir, ağlığı və ətri məşhurdur. Buna Ordubadın gözəl bağları şərait yaradır [17, s.483].

Kənd təsərrüfatının inkişafı su vasitəsindən də xeyli dərəcədə asılıdır. Bu dövrdə bölgədə su mənbələri, kəhrizlər, çaylar əkinçilik üçün lazımi şərait yaradırdı. Naxçıvan mahalının kəndlərinin ümumi torpaqları Qarababa, Cəhriçay, Küküçay, Nursuçay və b. arx-kanallar suyu ilə suvarılırdı. Arpaçay, Əlincəçay, Naxçıvançay, Gilançay su mənbələrindən və onlardan çəkilən arx və kanallardan suvarmada geniş istifadə olunmuşdur. Hətda ayrı-ayrı adamlar, imkanlı şəxslər də suvarma sistemləri qurmuş, süni göllər yaratmışlar. Tatar mühəndisi, Naxçıvanın qəza rəisi olan Şan Girey (Şahingirey) Şan Girey arxı çəkdirmiş, "Naçalnik gölü" tikdirmiş, II Kalbalı xanın himayəsi ilə Şahbuz rayonunun Kükü kəndindən şimalda Keçəl dağın ətəyində "Qanlı göl" su anbarı bəndini tikdirmişdir [12, s.84-85]. Naxçıvan xanları Əlincəçayın suyunun Ərəzin, Güznüt, Çeşməbasar, Nehrəm və b. kəndlərin təsərrüfatların istifadəsinə vermək üçün "Xorgədik" yüksəkliyinin altından tunel qazdırmış və suyu həmin əraziyə keçirmişlər.

Naxçıvan əyalətinin əkinləri bir neçə çayın suyu ilə suvarılırdı. Onlardan biri də Naxçıvan çayı idi. Vayxır kəndindən aşağıdakı kəndlər Naxçıvan çayın suyundan müəyyən qaydalarla istifadə edirdilər. Burada Naxçıvan çayı hər tərəfindən iki arx çəkilmişdi ki, əhali bu arxlar vasitəsi ilə axıdılan sudan müəyyən edilmiş qaydaya uyğun istifadə edirdi.

Cəhri çayının suyundan Cəhri, Şeytanabad, Payız və Nəzərəbad kəndlərinin sakinləri istifadə edirdilər. Müəyyən edilmiş qaydalara əməl edilməsi üçün 1 mirab və çoxlu sayda çuvarlar var idi.

Naxçıvan əyalətində həm içmək, həm də suvarmaq üçün istifadə edilən su mənbələrindən biri də bulaqlar idi. 1831-ci ilin məlumatına görə, Keçili kəndinin torpaqları 10 bulağın, Şahbuzun torpaqları 2 bulağın suyu ilə suvarılırdı [16, s.132-133]. Əhali əsasən bulaq və quyu sularından istifadə edirdi.

Su çatışmazlığı Naxçıvan əyaləti və Ordubad dairəsində hiss olunurdu. K.Nikitin yazır ki, Naxçıvan diyarında kənd təsərrüfatının inkişafına su çatışmazlığının böyük təsiri olmuşdur [15, s.129].

Naxçıvan şəhərinin əhalisi içmək üçün 2 bulağın və 1 kəhrizin suyundan istifadə edirdi. Ordubad şəhərində 70-ə yaxın bulaq var ki, onlardan bağlara və demək olar ki, evlərin hamısına su çəkilib.

Bəhs olunan dövrdə Naxçıvan şəhərinin mərkəzindən Bazar çayı keçirmiş və həmin çaydan çəkilən arx vasitəsilə şəhərin bütün yaşıllıqları, bağları, bostanları suvarılırmış. Naxçıvan şəhərindəki Bəydaş arxının suyundan da istifadə olunurdu. Suvarmada daha çox növbəli üsuldan istifadə edilirdi. Bir məlumatda deyilirdi ki, Naxçıvan şəhərində su üç sutka əsilzadələrə, dörd sutka müsəlmanlara, üç sutka ermənilərə verilirdi.

Beləliklə, aydın görünür ki, XIX əsrin 30-cu illərində və sonrakı illərdə də Naxçıvanda əkinçilik və maldarlıq üçün lazımi torpaq və su ehtiyatları olsa da, bu heç də insanların tələbatını tam ödəmirdi. Üstəlik bir sıra hallarda hakim siniflər öz imkan və səlahiyyətlərindən üstün istifadə edirdilər.

Nəticə. Naxçıvan əyalətinin və Ordubad dairəsinin 1831-ci il Kameral təsvirlərindən aydın olur ki, Naxçıvan şəhəri, Əlincəçay mahalı, Naxçıvan mahalı, Məvazixatun mahalı, Xok mahalı, Dərələyəz mahalı, Ordubad şəhəri, Ordubad mahalı, Əylis mahalı, Dəstə mahalı, Biləv mahalı və Çənnab mahalının iqtisadi inkişafı, alınan vergi və yerinə yetirilən mükəlləfiyyətlər Rusiya işğalından sonra davam etmiş, əhali müəyyən çətinliklərlə də qarşılaşmışdır. Əvvəlki təsərrüfat sahələri olan əkinçilik və maldarlıq, ticarət və sənətkarlıq, bağçılıq və ipəkçilik əsas yer tutmuşdur. Əkinçilikdə rəiyyətə müəyyən miqdarda torpaq sahəsi verilir və bunun müqabilində onlardan vergi alınırdı. Bir sıra hallarda vergilər natura formasında, çox hallarda isə məhsulun dəyəri pulla alınırdı. İşğaldan əvvəl və sonra alınan vergilərin müqayisəsi aparılmışdır. Məlum olmuşdur ki, toplam vergilər əvvəlki illərlə müqayisədə aşağı düşmüşdür. Kəndlilər müxtəlif xarakterli mükəlləfiyyətləri də yerinə yetirməli olur, təsərrüfatın müxtəlif sahələrində çalışır, iqtisadiyyatı inkişaf etdirirdilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivi (AMDTA), f.24, siy.1, sax. Vah. 353 (Naxçıvan şəhərinin kameral təsviri)
2. AMDTA, f.24, siy. 1, sax. vah. 354 (Əlincəçay mahalının kameral təsviri)
3. AMDTA, f.24, siy. 1, sax. vah. 355 (Naxçıvan mahalının kameral təsviri)
4. AMDTA, f. 24, siy. 1, sax. vah. 358 (Əylis mahalının kameral təsviri)
5. AMDTA, f. 24, siy. 1, sax. vah. 359 (Dəstə mahalının kameral təsviri)
6. AMDTA, f. 24, siy. 1, sax. vah. 360 (Biləv mahalının kameral təsviri)
7. AMDTA, f. 24, siy. 1, sax. vah. 361 (Çənnab mahalının kameral təsviri)
8. AMDTA, f. 24, siy. 1, sax. vah. 372 (Ordubad mahalının kameral təsviri)
9. AMDTA, f. 24, siy. 2, sax. vah. 6 (Ordubad şəhərinin kameral təsviri)
10. Əhmədli N. Naxçıvan əyalətinin və Ordubad dairəsinin kameral təsviri. 1831. Bakı: Elm və təhsil, 2021, 712 s.
11. Naxçıvan sancağının müfəssəl dəftəri (Araşdırma qeyd və şərhlərin müəllifi H.Məmmədov (Qaramanlı)). Bakı, 2001, 376 s.
12. Rəhimov Y. Naxçıvan XIX əsr rus mənbələrində. Bakı: Elm və təhsil, 2014, 180 s.
13. Григорьев В. Статистическое описание Нахичеванской провинции. СПб, 1833, 263 с.
14. Мильман А. Политический строй Азербайджана в XIX – начале XX веков. Баку: Азернешр, 1966, 318 с.
15. Никитин К.Н. Город Нахичевань и Нахичеванский уездь // Сборник материалов для описания местностей и племен Кавказа. Вып. 2, Тифлис, 1882, с.109-142.
16. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку, Озан, 1999, 156 с.
17. Шопен И. Исторический памятник Армянский области в эпоху ее присоединение к Российской империи. СПб, 1862, 1231 с.

ИСМАИЛ ГАДЖИЕВ
Председатель Нахчыванского отделения НАНА, Академик

ЭКОНОМИЧЕСКАЯ ЖИЗНЬ НАХЧЫВАНСКОЙ ПРОВИНЦИИ И ОРДУБАДСКОГО ОКРУГА

В статье на основе камерального описания Нахчыванской провинции и Ордубадского округа исследована экономическая ситуация 30-х годов XIX века.Были изучены такие вопросы,

как формы собственности на землю и виды хозяйства, состояние и развитие сельского хозяйства и животноводства, налоговая система, ее разделение на группы и сборы, наделы и повинности, назначение управляющего Нахчыванской провинцией, сделаны окончательные выводы об экономических особенностях провинции и округа.

Ключевые слова: провинция, округ, налоги, повинности, экономика, сельское хозяйство, надел, тиюль.

ISMAYIL HAJIYEV
Chairman of ANAS Nakhchivan Division, Academic

ECONOMIC LIFE OF NAKCHIVAN PROVINCE AND ORDUBAD DISTRICT

In the article, the economic situation in the 30s of the 19th century was studied based on the cameral description of Nakhchivan province and Ordubad district. Issues such as land ownership and economic forms, the current state and development of agriculture and animal husbandry, the tax system, its division into groups and collection, the areas and obligations assigned to the iltizam, the appointment of an administrator to Nakhchivan province, and total conclusions about the economic characteristics of the province and district were made.

Keywords: province, district, taxes, duties, economy, agriculture, iltizam, tiyul.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 sentyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.